# UĞURLU SİYASƏT

**Azərbaycan Prezidenti cənab İlham Əliyevin uğurlu, yorulmaz fəaliyyəti bu gün həm ölkədə və regionda, həm də bütün dünyada çox yüksək dəyərləndirilir. Andiçmə mərasimindəki nitqində Prezident İlham Əliyev bəyan etmişdir ki, o, Azərbaycanın xoşbəxt gələcəyinə inanır və ölkəmiz müasir, inkişaf etmiş dövlətə çevriləcəkdir. Ancaq bunları həyata keçirmək üçün ən başlıca olaraq öndər, dahi şəxsiyyət Heydər Əliyevin müəyyənləşdirdiyi siyasət davam etdirilməlidir.**

Dövlət başçısı öz fəaliyyəti dövründə sosial liberalizm xəttinə üstünlük vermişdir. Bu siyasi təlim son nəticədə insan amilini nəzərdə tutan liberal bazar iqtisadiyyatı xəttini əsas hədəf kimi götürür. Prezident tərəfindən yürüdülən siyasət elmi-praktiki əsaslara söykəndiyindən bazar iqtisadiyyatı prinsiplərinin cəmiyyətimizdə özünə möhkəm dayaqlar tapması, özəl sektorun inkişafına yaradılmış şərait iqtisadiyyatın liberallaşdırılması sosial himayəyə ehtiyacı olan Azərbaycan vətəndaşlarının maraqları ilə qətiyyən ziddiyətə girmir. Əksinə, yeni neft strategiyasının uğurlu nəticələrindən əldə edilən dividendlər ölkənin iqtisadi inkişafı nəticəsində insanlarımızın sosial problemlərinin həllinə, büdcə təşkilatlarında çalışanların məvaciblərinin artırılması və sosial müdafiə sisteminin təkmilləşməsinə diqqət və qayğı daim artır.

Ölkə rəhbəri verdiyi bütün vədlərin düşünülmüş və əməli fəaliyyət planına söykəndiyini, respublikanın gerçək potensialı ilə uzlaşdığını qazanılan uğurla təsdiqlədi.

"Əsl siyasət konkret, real iş görməkdən ibarətdir" – söyləyən cənab İlham Əliyev bu siyasəti hər bir ölkə vətəndaşının həyatında gerçəkliyə çevirmək üçün siyasi iradə, qətiyyət və əzmkarlıq nümayiş etdirir.

Prezident İlham Əliyevin yürütdüyü uğurlu siyasi xətt dünyanın aparıcı siyasi mərkəzləri, institutları tərəfindən müsbət qiymətləndirilir. Son illərdə ümumən Respublikanın beynəlxalq imici və mövqeləri daha da möhkəmlənmişdir. Cənab İlham Əliyev qeyd edib ki, Azərbaycan artıq dünyada gedən proseslərin fəal iştirakçısıdır. Bir çox hallarda bölgə və Avropa üçün önəmli tədbirlərin təşəbbüskarıdır. Bölgədə Azərbaycanın mövqeyindən çox şey asılıdır. Azərbaycanın iştirakı olmadan bölgədə heç bir layihə – nə siyasi, nə iqtisadi, nə də başqa layihələr həyata keçirilə bilər.

Ötən dövr ərzində həyata keçirilmiş səmərəli tədbirlər Azərbaycanın bir çox Qərb ölkələri ilə əlaqələrinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsinə inam vermişdir.

Cənab İlham Əliyev dünya miqyasında mövcud reallığı operativ qiymətləndirməyi bacarır. Ona yaxşı məlumdur ki, böyük dövlətlərin geosiyasi maraqlarının getdikcə antaqonist mahiyyət kəsb etməyə başladığı bir vaxtda Qərbin və Rusiyanın Azərbaycana yönəlmiş siyasətində tezliklə müsbət çalarların sayı artmalıdır. Xüsusilə son vaxtlar bu iki güc mərkəzi ilə Azərbaycan arasındakı münasibətlərin regiondakı digər dövlətlərin qibtə edəcəyi dərəcədə inkişaf etməsi məhz gərgin fəaliyyətin nəticəsidir. Xüsusən ölkənin Avratlantik məkanda əməkdaşlıq prosesində pozitiv dəyişikliklərin artan xətt üzrə inkişafı diqqəti cəlb edir. Təsadüfi deyil ki, Azərbaycanın iqtisadi tərəfdaşlarının bir çoxu strateji müttəfiqlərə çevrilir.

Respublika Prezidenti cənab İlham Əliyevin əsl siyasi liderə məxsus keyfiyyətləri, vətənpərvərliyi, yüksək idarəçilik qabiliyyəti, ictimai auditoriyaya təsir imkanları və işgüzarlığı ilə özünü həyatda tam təsdiqləyir. Cənab İlham Əliyev bir Prezident kimi ulu öndər Heydər Əliyevin strateji kursunu ölkənin həyatının müxtəlif sahələrində həyata keçirilən fundamental, mükəmməl bazaya söykənən islahatlarla daha da sürətləndirmiş və ölkə vətəndaşları qarşısında verdiyi sözə əməl etmişdir.

Dahi öndər, böyük siyasi xadim Heydər Əliyevin dühası sayəsində Azərbaycan üzərində zülməti yaran, ölkə əhatəsinə sevinc bəxş edən bir günəş çıxdı. Doğan bu günəş zülməti əridib yox etdi, xalqda sabaha, gələcəyə inam yaratdı. Bu gün ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi iqtisadi, mədəni-mənəvi, siyasi xəttin təşkilatçısı, təminatçısı ölkə Prezidenti cənab İlham Əliyevdir. Onun rəhbərliyi ölkənin iqtisadi, mədəni mənəvi inkişafın, regionda sülhün və əmin-amanlığın qorunub saxlanmasının etibarlı təminatıdır. Dahi şəxsiyyət Heydər Əliyevin siyasi kursunun etibarlı davamçısı və varisi cənab İlham Əliyev bu gün ən intellektual siyasətçi kimi artıq beynəlxalq arenada böyük nüfuz qazanmışdır.

***Cənab İlham Əliyevin prezidentlik fəaliyyəti dövrü ərzində ölkədə milli neft strategiyasının həyata keçirilməsində, əhalinin sosial rifah halının yaxşılaşdırılması yolunda xidmətləri əvəzsizdir. Azərbaycanda regionların inkişafı, şəhər və rayonların görkəminin gündən-günə yaxşılığa doğru dəyişməsi bilavasitə cənab İlham Əliyevin adı ilə bağlıdır.***

**Oktay HÜSEYNOV,**
**Qaradağ rayon Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru.**